http://www.amu.edu.az

# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 05 (1645) 16 mart 2017 - ci il Qiymətı 50 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyevin Parisdə rəsmi qarşılanma mərasimi olub

**Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Parisdə rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Prezident İlham Əliyev Parisin Veteranlar meydanında yerləşən Ordu Muzeyinə gəldi.

Dövlətimizin başçısını Fransanın kənd təsərrüfatı naziri, hökumətin sözçüsü Stefan Lö Fol qarşıladı.

Ordu Muzeyinin yerləşdiyi Veteranlar meydanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycanın və Fransanın dövlət himnləri səsləndi.

Prezident İlham Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Fransanın kənd təsərrüfatı naziri, hökumətin sözçüsü Stefan Lö Fol Azərbaycan nümayəndə heyətinin üzvləri ilə görüşdü.



## BU SAYIMIZDA

Azərbaycan Tibb və Qırğızıstan-Türkiyə Manas universitetlərinin rektorları görüşüb 2







Rektor tələbələrlə görüşüb 2

Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin nümayəndə heyəti ilə görüş keçirilib 3



Rektor xanımların bayramını təbrik edib 2



"Təbabətin aktual problemləri - 2017" elmi-praktik konfransı 3

Azərbaycan Tibb Universitetində Təhsilin Keyfiyyətinin Təminatı haqqında Bəyannamə qəbul edilib 6

Ümumdünya Böyrək Günü qeyd edildi 5

Azərbaycanlı cərrahların yeni modifikasiya ilə dünya təcrübəsinə inteqrasiyası 4



ATU ilə Koç Universiteti arasında əməkdaşlıq memorandumu imzalandı 2



Bu müayinə Azərbaycanda yalnız ATU-nun Tədris Terapevtik Klinikasında aparılır 5

Aktiv tələbələr istirahətə göndərildi 7

# Azərbaycan Tibb və Qırğızıstan-Türkiyə Manas universitetlərinin rektorları görüşüb

**• Fevralın 28-də Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ilə Qırğızıstan-Türkiyə Manas Universitetinin rektoru, professor Sebahattin Balcı arasında görüş keçirilib.**



Qonaq, professor S.Balcı ilk öncə rəhbərlik etdiyi universitet haqqında geniş məlumat verib. Onun sözlərinə görə, adıçəkilən ali təhsil ocağı Türkiyə və Qırğızıstan hökumətləri arasında bağlanan saziş əsasında yaranıb: “Qırğızıstan-Türkiyə Manas Universiteti artıq 21 ildir ki, fəaliyyət göstərir. 6000-dən çox tələbəmizin arasında 14 xarici ölkəni təmsil edən gənclər də var. 9 fakültəmiz fəaliyyət göstərir. Diplomumuz hər bir ölkədə tanınır. 5 qitə və 33 ölkədə tələbələrimiz mütəxəssis kimi çalışırlar”.

Bu il Manas Universitetinin Türk Universitetlər Birliyinə başçılıq edəcəyini deyən rektor, ATU-nun da bu birlikdə aktiv iştirak etməsini dilədi: “Bu il başçı universitet bizik və həqiqətən də yeniliklər etmək istəyirik. Bizdə tibb fakültəsi olmasa da, sizin tələbələri, mütəxəssisləri öz qurumumuzda görməyə çox şad olarıq”.

ATU-nun rektoru Gəray Gəraybəyli bu birlik haqqında məlumatlı olduğunu vurğulayıb: “Bəli, sizin birliyinizin üzvləri arasında ATU da var. Keçən il universitetimizin prorektoru da sizin tədbirdə iştirak etmişdi. Bu il də mütləq hansısa istiqamətdə bizim ali təhsil ocağından nümayəndə və yarışlarda iştirak üçün tələbə görəcəksiniz”.

Görüşdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalov, beynəlxalq əlaqələr şöbəsinin müdiri İkram Rüstəmov da iştirak ediblər.

# ATU ilə Koç Universiteti arasında əməkdaşlıq memorandumu imzalandı

**• Martın 2-də Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Türkiyənin Koç Universitetinin nümayəndə heyəti ilə görüşüb.**



Görüş zamanı rektor ATU-nun bir çox xarici ölkə universitetləri ilə əməkdaşlıq etdiyini, son illər bu münasibətlərin daha da gücləndiyini bildirib. Bu ölkələr arasında Türkiyə ali təhsil ocaqlarının üstünlük təşkil etdiyini vurğulayan Gəray Gəraybəyli Koç Universitetini də ATU-nun əməkdaşlıq etdiyi universitetlər sırasında görməkdən məmnun olacağını bildirib.

O, qonaqlara Tibb Universitetinin fəaliyyəti, mövcud fakültələri, tədris sistemi, rezidentura pilləsi, klinikaları və yataqxanaları haqqında ətraflı məlumat verərək hazırda bir çox sahələrdə islahatlara start verildiyini deyib. Qeyd olunub ki, ATU Azərbaycanda həkim və əczaçılıq sahəsində mütəxəssis hazırlayan yeganə universitetdir: “Universitetimizə ildə təxminən 1000 tələbə qəbul edilir. Hazırda 7000-ə yaxın tələbəmiz var. Avropa universitetləri ilə müqayisədə böyük olmasa da, amma bütövlükdə Azərbaycanın aparıcı ali ocaqlarından biriyik”.

Rektor yarım əsrdən çoxdur fəaliyyətdə olan Azərbaycan Tibb Universitetinin hazırda zəngin maddi-texniki bazası, tədris korpusları, tələbə yataqxanası, xəstəxana və klinikaları ilə Azərbaycanın ən iri elm və tibb ocaqlarından biri olduğunu bildirib: “Universitet elmi-tədqiqat laboratoriyaları, müasir cihazlar və avadanlıqlarla təchiz edilib ki, bu da elmi axtarışların əhəmiyyətini artırmağa, tibb sahəsində kifayət qədər kadr potensialı yaratmağa imkan verir”.

ATU-nun 4 klinikası ilə yanaşı, 6 tədris binası, inzibati binası, tələbə yataqxanası olduğunu qeyd edib: “ATU-da 5 il öncə ikipilləli təhsil sitemina keçib. Lakin bu bölmədə də çatışmamazlıqlar var. Biz bu sahəyə çox önəm veririk, sizin universitetlə də rezident mübadiləsinə, sizin bu sahədə olan bacarıqlarınızdan bəhrələnməyə çox şad olarıq”.

Koç Universiteti Xəstəxanasının direktoru Sergin Akper də ilk təmasdan məmnun olduğunu bildirib. Təmsil etdiyi təşkilat haqqında məlumat verən S.Akperin sözlərinə görə, Koç Universiteti Xəstəxanası-Koç Universiteti Tibb Fakültəsinin araşdırma və təhsil xəstəxanasıdır: “Bizim universitetdə rezidentura sistemi uzun müddətdir ki, tətbiq olunur. Bu sahədə olduqca ciddi nailiyyətlərimiz var”. Sergin Akper yaxın vaxtlarda Koç Universitetində təşkil olunacaq elmi seminara ATU-nun nümayəndə heyətini dəvət edib.

Qarşılıqlı fikir mübadiləsindən sonra universitet rəhbərləri arasında əməkdaşlığa dair memorandum imzalanıb. Bu sənəd Azərbaycan Tibb Universiteti və Koç Universiteti arasında həkim, mütəxəssis, rezident mübadiləsi, qarşılıqlı layihələrin reallaşdırılmasını nəzərdə tutur.

Görüşdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalov və beynəlxalq əlaqələr şöbəsinin müdiri İkram Rüstəmov da iştirak ediblər.

# Rektor xanımların bayramını təbrik edib

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli bu ali təhsil ocağında çalışan xanımları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib.**



Rektor ATU-da fəaliyyət göstərən xanımlara çiçək verərək, onlara ailə xoşbəxtliyi, işlərində uğurlar arzulayıb: “Əziz xanımlar! Bu bayramlar ərəfəsində sizi ürəkdən təbrik edirəm - həm 8 Mart Beynəlxalq Qadınlar Günü, həm “Yel çərşənbəsi”, həm də qarşıdan gələn Novruz Bayramı münasibəti ilə. Ümumiyyətlə, psixoloqların bir çox tədqiqatları gender məsələləri ilə əlaqədar olur. Bir çox tədqiqatlar göstərir ki, mono-kollektivdə həmişə böyük psixoloji gərginliklər yaşanır. Yəni ancaq qadın və ya ancaq kişilərdən ibarət kollektivdə mütləq gərginlik olur. Ancaq qarışıq kollektivlərdə gərginliklər sovuşur. Sizlərə baxıram, görürəm ki, belə kollektivdə gərginlik olmamalıdır. Hesab edirəm ki, siz öz iş yerinizdə həm universitet üçün, həm də xalqımız üçün əlinizdən gələni edirsiniz və edəcəksiniz də. Sizlərə və ailənizə səadət, mehribançılıq, can sağlığı arzu edirəm. Neçə belə gözəl bayramlara çıxasınız!”



# Rektor tələbələrlə görüşüb

**◆ Martın 2-dən etibarən ATU-nun rektoru, professor Gəray Gəraybəylinin tələbələrlə görüşləri başlayıb. İlk olaraq rektor universitetin I kurslarının qrup nümayəndələri ilə görüşüb.**



Yeni tələbə olan gənclər özlərini maraqlandıran məsələləri qaldırıblar. Həm tədris və təhsil sistemi, həm də tələbələri narahat edən sosial məsələlərlə bağlı bir sıra təklif və iradlar səsləndirilib. Qeyd edək ki, görüşdə 82 qrup nümayəndəsi iştirak edib.

***

Martın 9-da II kurs tələbələri ilə görüşən rektor tədris ilində görülən işlərdən, tətbiq olunan yeniliklərdən, ATU-nun Azərbaycan təhsilində tutduğu mövqedən, o cümlədən gənclərin maariflənməsində müstəsna rolundan bəhs edib.

***

Martın 14-də isə rektor universitetin bütün fakültələri üzrə III kursların qrub nümayəndələri ilə görüşüb.

Səmimi şəraitdə keçən görüşdə təhsil sistemindən tutmuş tələbələrin asudə vaxtının təşkilinə kimi müxtəlif məsələlərlə bağlı suallar səsləndirilib. Qrup nümayəndələri bildiriblər ki, tələbələr universitetin ictimai həyatında daha aktiv iştirak etmək istəyirlər. Rektor gəncləri Tələbə Həmkarlar İttifaqı Komitəsi ilə yaxından işləməyə dəvət edib.

***

Görüşlər zamanı bütün sualları cavablandıran Gəray Gəraybəyli bir sıra məsləhət və tövsiyələrini diqqətə çatdırıb, bəzi məsələlərin həlli ilə bağlı yerindəcə göstəriş verib.

Bu görüşlərin təşkilinə görə rektora təşəkkür edən tələbələr ATU-dakı təhsil sistemindən razı qaldıqlarını və yeni imtahan üsuluna keçidi müsbət qiymətləndirdiklərini bildiriblər.







Xatırladaq ki, ATU-nun müxtəlif kurslarında və fakültələrində təhsil alan tələbələrlə görüşlər davam edəcək.

**ATU-nun mətbuat xidməti**

# "Təbabətin aktual problemləri-2017" elmi-praktik konfransı

**Fevralın 28-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş "Təbabətin aktual problemləri - 2017" elmi-praktik konfransı keçirilib.**

Konfransa sədrlik edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli bildirdi ki, bu təhsil ocağı Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünü yeni elmi nailiyyətlərlə qarşılayıb: "2016-cı ildə ölkəmizin dövlət müstəqilliyinin bərpasının 25 ili tamam oldu, prezidentin sərəncamına əsasən, bu gün bütün ölkədə geniş qeyd edildi. Bu münasibətlə Prezident, cənab İlham Əliyevin Sərəncamı, Təhsil Nazirliyinin əmri və Səhiyyə Nazirliyinin müvafiq göstərişləri əsas götürülərək, ATU-nun nəzdində yaradılmış təşkilat komitəsi də elmi-praktik konfrans keçirmək qərarına gəldi. "Elmsiz tədris, tədrissiz elm yoxdur!" prinsipinə riayət edən ATU-nun əməkdaşları daim bu ideyanı rəhbər tutaraq, tədrislə elmin inteqrasiyasını yüksək səviyyədə aparmağa nail olublar".



Gəray Gəraybəyli həmçinin vurğuladı ki, ulu öndər 1998-ci il sentyabrın 28-də və 2000-ci il iyunun 19-da iki dəfə ATU-ya gələrək, öz müdrik çıxışı ilə səhiyyə işçilərini yeni nailiyyətlərə ruhlandırıb: "2002-ci ildə ümummilli lider ATU-nun ilk klinikası olan Stomatoloji Klinikanı yaratmaqla, tədris klinikalarının bünövrəsini qoydu. Bundan sonra ümummilli liderin layiqli davamçısı, cənab prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğısı sayəsində ATU-da daha üç klinika - Onkoloji, Tədris Terapevtik və Tədris Cərrahiyyə klinikaları fəaliyyətə başladı. ATU-nun qarşısında duran əsas vəzifələrdən biri də gənclərin elmi işlərə cəlb edilməsidir. Yəni, öndə duran məsələ rezidentlərin və tələbələrin elmi axtarışlara marağını artırmaqdır".

Sonra konfrans işini plenar məruzələrlə davam etdi.

ATU-nun I cərrahi xəstəliklər kafedrasının əməkdaşı Tariyel Ömərov "Aşırı piylənməsi olan xəstələrdə apardığımız bariatik cərrahi əməliyyatların nəticələri", psixiatriya kafedrasının əməkdaşı Gülay Məmmədzadə "Depressiya - xərçəng xəstəliyinin "maskalanmış" simptomu", II cərrahi xəstəliklər kafedrasının əməkdaşı Pərviz Abbasov "Qaraciyər transplantasiyasından sonra rast gəlinənin ağırlaşmaların profilaktikasında portovenoz plastika üsullarının müqayisəli öyrənilməsi", ATU-nun Tədris Terapevtik Klinikasının əməkdaşı Orxan Quliyev "Böyrək transplantasiyası olunmuş resipiyentlərdə arterial sərtlik və metabolik sindrom arasındakı əlaqə" mövzularında məruzələrlə çıxış etdilər.



Konfransda universitetin prorektorları və müvafiq kafedraların müdirləri iştirak edirdilər.

# ATU-nun yeni gerbi və loqosu seçildi

ATU-nun Böyük Elmi Şurasının yanvarın 27-də keçirilən iclasının 6 saylı qərarına əsasən, ATU-nun yeni gerb və loqosu təsdiqlənib.

Azərbaycan Tibb Univesitetinin yeni gerbi dairəvi formadadır. Dairənin mərkəzində maarif və inkişaf rəmzi kimi açılmış kitab təsvir edilib. Kitabın üstündə Hippokrat camı, yəni ilan sarılmış cam yerləşdirilib. Məlum olduğu kimi, bu simvol dünyada səhiyyə və tibbin əsas rəmzi sayılır.

Kitabın altında universitetin yaranma tarixi əks olunub. Kitabı, tarixi və Hippokrat camını iki ədəd zeytun yarpağı əhatələyir. Zeytun - Azərbaycanda yetişən əsas bitkilərdən biri kimi geraldikada sülh, inkişaf, eləcə də şəfa rəmzi kimi qəbul edilib.

Gerbin kənarları boyunca "Azərbaycan Tibb Universiteti" sözləri yazılıb, sözlərin hər iki tərəfində isə səkkizgüşəli ulduz əks olunub. Gerbin alt hissəsində isə üçrəngli bayrağımızın rənglərinə uyğun olaraq göy, qırmızı və yaşıl rənglərdə üç zolaq çəkilib. Bunlar isə məhz Azərbaycan Respublikasına məxsusluğumuzu, milliliyimizi və dövlətimizi xarakterizə edən simvollardır.

ATU-nun yeni loqosunda isə açılmış kitabın ortasında rəmzi cam təsvir edilib. Camın ətrafına cərrahi iynə formasında ilan sarılıb. Loqoda ATU abbreviaturası, onun altında universitetin yaranma tarixi də qeyd olunub.

# Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin nümayəndə heyəti ilə görüş keçirilib

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (JICA) nümayəndə heyəti ilə görüş keçirilib.**



Görüşü ATU-nun Beynəlxalq Əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov açaraq universitetin beynəlxalq qurumlarla əməkdaşlığı barədə məlumat verib. Sonra elmi işlər üzrə prorektor, dosent Rauf Bəylərov ATU-da aparılan elmi-tədqiqatlar barədə danışaraq, bu işlərin bir qisminin beynəlxalq təşkilatların dəstəyi ilə həyata keçirildiyini vurğulayıb.

Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev Azərbaycan Tibb Universitetinin klinik bazaları haqda məlumat verərək, elmi işlərin müalicə və tədris işləri ilə paralel aparılmasına auditoriyanın diqqətini cəlb edib, elmi araşdırmaların aparılması üçün lazımi şəraitin olmasının zəruriliyini bildirib.

II uşaq xəstəlikləri kafedrasının assistenti Sevinc Muxtarova JICA təşkilatının qrantı hesabına Yaponiyada 20 günlük treninq-seminarda iştirak etdiyini deyib və təəssüratlarını tədbir iştirakçıları ilə bölüşüb.

Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin Özbəkistanda yerləşən regional mərkəzinin müdiri Fuşimi Katsutoşi təşkilatın tarixi, Yaponiya hökumətinə aidiyyəti, qrant layihələrinin ayrılması prinsipi və müxtəlif dövlətlərin hökumətləri ilə əlaqələri barədə ətraflı məlumat verib, bu qrant layihələrində Azərbaycanın da iştirak etdiyini bildirib.

Tədbirin sonunda Dr. Sevinc Muxtarovanın layihəsi üçün nəzərdə tutulmuş avadanlıq - yenidoğulmuşlar üçün portativ RAD-5 puls-oksimetri və EMMA kapnoqrafı təqdim olunub.

Tədbirdə JICA təşkilatının Özbəkistan üzrə koordinatoru Farhod Kurbonov və Azərbaycan üzrə koordinatoru Nigar İsmayılova, həmçinin II uşaq xəstəlikləri kafedrasının və ATU Cərrahi Klinikasının neonatal xidmətinin əməkdaşları iştirak ediblər.

**ATU-nun mətbuat xidməti**

# Azərbaycanlı cərrahların yeni modifikasiya ilə dünya təcrübəsinə inteqrasiyası

## ATU-nun həkimləri arıqlamaq istəyənlərə yeni növ əməliyyat təklif edirlər

**◆ Məlum olduğu kimi, piylənmə ilə mübarizə uzun illərdir ki, cərrahi yollarla korreksiya olunmaqdadır.**

Təqdir olunası haldır ki, azərbaycanlı cərrahlar piylənmə ilə mübarizədə dünya tibbinin müasir nailiyyətlərini ölkəmizdə uğurla tətbiq edir.

ATU-nun I cərrahi xəstəliklər kafedrasının əməkdaşı, Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Dərnəyinin sədri, t.ü.f.d. Taryel Ömərov bu barədə qəzetimizə ətraflı məlumat verib.

Onun sözlərinə görə, piylənmə zamanı Bədən Kütləsi İndeksi (BKİ) deyilən meyardan istifadə olunur. Bu rəqəm 20 -25 arasında olarsa, insan normal çəkidə hesab olunur. BKİ-si 35-dən çox olub qeyri-cərrahi yolla arıqlaya bilməyən pasiyentdə piylənmə nəticəsində yaranmış bir neçə patologiyanın varlığı mövcuddursa, bu zaman qalıcı və uzun müddətli effekt əldə etmək üçün mütləq cərrahi metodlara müraciət etmək lazımdır: "Amma unutmamalıyıq ki, cərrahi metod bu işdə son çarədir və əgər beynəlxalq təcrübəyə əsaslanaraq düzgün seçim olunmazsa, ən yaxşı halda pasiyent effekt görə bilməz.




Uzun illərdir ki, dünya cərrahları ideal və fəsadsız bariatrik cərrahi əməliyyat növü üzərində işləyirlər. Bu axtarışın başlanğıcı ötən əsrin 50-ci illərinə gedib çıxır. Bu işdə dönüş nöqtələrindən birincisini hazırda İFSO-Beynəlxalq Bariatrik Cərrahiyyə və Metabolik Xəstəliklər dərnəyinin həmsədrlərindən biri və əslən italyanlı olan professor Nicola Scopinaro 1976-cı ildə biliopankreatik diversiya adlanan əməliyyatla başlatdı". T.Ömərovun bildirdiyinə görə, əməliyyat nə qədər effektiv olsa da, az mənimsənilmə ilə bağlı olaraq sonradan baş verən patologiyalar yaranırdı: "Amma 2-ci dönüş nöqtəsi 1993-cü ildə Kremen Ru üsuli ilə mədə şuntlanması əməliyyatının tətbiqi oldu. 3-cü dönüş nöqtəsi isə 2003-cü ildə günümüzdə ən populyar əməliyyat sayılan mədəkiçiltmə (Sleeve qastrektomiya) əməliyyatının gündəmə gəlməsi oldu.

Bu əsas metodları özündə birləşdirən və günümüzdə tətbiq olunan onlarla aralıq növü var. Yəni ideal bariatrik əməliyyat növü ancaq və ancaq pasiyentin bədən kütləsi indeksinə, yanaşı gedən xəstəliklərinin ağırlıq vəziyyətinə, yaşına və s. bu kimi meyarlara ciddi nəzər yetirərək seçilərsə, daha effektiv olur".




T.Ömərov mədə kiçildilməsi məsələsinə də toxunub: "Bariatik Metabolik Cərrahiyyə müasir üsullarla həyata keçirilən və bütün dünyada populyarlıq qazanmış əməliyyatlardan biridir. Piylənmədən əziyyət çəkən insanlara bu baxımdan bir neçə növ əməliyyat təklif olunur. Hər birinin də öz üstün cəhətləri və çatışmazlıqları var. Məsələn, mədəkiçiltmə pasiyentlərin artıq çəkilərinin maksimum 60-80%-nin itirilməsinə gətirib çıxarırsa, Ry üsulu ilə mədə şuntlaması əməliyyatında bu rəqəm 90-100 %-dir. Mədəkiçiltmə ilə II tip şəkərli diabetdən qurtulma 60 %-dirsə, mədəşuntlama əməliyyatları zamanı bu rəqəm 90 %-ə qədər qalxa bilir. Buna çox sayda misallar çəkmək olar. Deməli, mədə şuntlama əməliyyatları daha idealdır .

Lakin unutmamalıyıq ki, mədəşuntlama əməliyyatlarının özünəməxsus spesifik fəsadları da vardır. Bunun ən bariz nümunəsi kimi dəmir, vitamin B12 defisitli anemiya və diqqət edilməzsə azmənimsənilmə sindromu və digər problemlərə səbəb ola bilər. Lakin aşırı piylənmədən əziyyət çəkən və II tip diabeti olan pasiyentlərdə bu tip əməliyyatlar arıqlayaraq öz ideal çəkilərinə çatmaqda daha effektivdirlər. Mədəkiçildilməsi isə bu işdə mədəşuntlama əməliyyatıarından geri qalır.

Lakin azərbaycanlı həkimlər bir neçə metodu özündə birləşdirən və minimum az yan təsiri olan yeni növ əməliyyat-mədəkiçildilməsi zamanı standart metodla müqayisədə daha dar və həcmcə kiçik mədə formalaşdırmaq üçün yeni təklif veriblər. İşin məğzi bu əməliyyata standart metoddan fərqli olaraq təxminən 1 sm dimaetrdə mədə + pilorik sfinkterə daha yaxın 2 sm yaxınlaşaraq rezeksiyanın başlanması, yəni antral hissənin maksimal şəkildə rezeksiyası + dar mədə saxlanılması zamanı baş verəcək anastamoz xətti sızmalarının, burulmaların və s. bu kimi ağırlaşmaların faizini daha çox azaltmaq üçün əməliyyat zamanı mədənin böyük əyriliyindən ayrılmış omentumun yenidən kəsik xəttinə tikilməsi durur. Nəzərə çatdırmaq istərdik ki, standart metodda mədənin diametri 13-15 mm, həcmi isə 140-160 ml qalır, rezeksiya isə pilorik sfinkterdən 4-6 sm kənardan başlayaraq həyata keçirilir.

T.Ömərov sonda artıq bu əməliyyatın dünya səviyyəsində tanıdılması üçün patent təşkilatlarına müraciət olunduğunu da qeyd edib.

**Qabil ABDULLAYEV**

# Pol Sabatye Tuluza Universitetinin təmsilçisi ATU-nun qonağı oldu

**Bu günlərdə Fransanın bir neçə universitetinin nümayəndələri Bakıda səfərdə oldular. Strasburq Universiteti, İCD Business School, CEFAM University, Pol Sabatye Tuluza Universitetinin təmsilçiləri Fransanın Azərbaycandakı Səfirliyinin və Institut Français d'Azerbaïdjan (Fransız İnstitutu) təşkil etdikləri sərgidə iştirak ediblər.**

Səfər çərçivəsində fransalı qonaqlar Azərbaycanın bir sıra universitetlərini, o cümlədən Azərbaycan Tibb Universitetini (ATU) də ziyarət ediblər. ATU-nun da iştirakçısı olduğu Erasmus Mundus MEDEA layihəsinin koordinatoru, Pol Sabatye Tuluza Universitetinin nümayəndəsi Oksana Kunduzova ATU-nun Tədris Terapevtik və Tədris Cərrahiyyə klinikalarında qonaq olub. Bu müəssisələrlə tanışlıqdan sonra xanım Kunduzova Tədris Terapevtik Klinikanın direktoru, professor Hüseyn Qabulov və Tədris Cərrahiyyə Klinikasının baş həkimi, professor Rauf Ağayevlə görüşüb.

Görüş zamanı partnyor universitetlərin klinika əməkdaşları arasında təcrübə və elmi mübadilənin istiqamətləri müzakirə olunub, bunun hər iki tərəf üçün faydalı olacağı vurğulanıb. Eynu zamanda, bu cür layihələrin gələcəkdə də davam olunmasının vacibliyi vurğulanıb.

Fransalı qonaqların iştirakilə "ADA" Universitetində keçirilən ictimai müzakirələrdə Azərbaycan Tibb Universitetinin əməkdaşları da iştirak ediblər. Tədbirdə universitetlərarası əməkdaşlığın



perspektivləri müzakirə olunub. Fransanın Azərbaycandakı Səfiri Xanım Orelia Buşez və digər iştirakçılar iki ölkə arasında təhsil və elm sahəsində əməkdalığın möhkəmlənməsinin vacibliyini qeyd ediblər.




# "Ürəyinin tonunu hiss et" adlı fleşmob keçirilib

Azərbaycan Tibb Universitetinin Tələbə Gənclər Təşkilatının fəalları və universitet tələbələrinin iştirakı ilə "Ürəyinin tonunu hiss et" adlı fleşmob keçirilib. Fleşmobun keçirilməsində məqsəd gənclərin sosial fəaliyyətlərinin artırılması, gələcəkdə bu cür aksiyalarda aktiv iştirak etmələridir.

67 nəfərin qatıldığı fleşmobun koordinatoru ATU TGT-nin daxili işlər üzrə sədr müavini Rauf Vəliyevdir.

Qeyd edək ki, bu, ATU TGT-nin bu il ərzində təşkil etdiyi sayca 2-ci belə fleşmobdur.

# ATU-nun Tələbə Gənclər Təşkilatının (TGT) fəalları xüsusi aksiya təşkil edib






8 Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə əlaqədar ATU-nun Tələbə Gənclər Təşkilatının (TGT) fəallarının xüsusi aksiyası təşkil olunub. Onlar ATU-da çalışan təmizlik işçilərinə gül hədiyyə ediblər.

# Tədris Terapevtik Klinikada Ümumdünya Böyrək Günü qeyd edildi

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında XII Ümumdünya Böyrək Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib.**

Konfransa Bakıda və regionlarda yerləşən dializ mərkəzlərinin şöbə müdirləri, nefroloqlar və nefroloji mərkəzlərin həkimləri qatılıblar.

Konfransı giriş sözü ilə açan klinikanın direktoru, professor Hüseyn Qabulov iştirakçıları salamlayaraq, onlara konfransın işində uğurlar arzulayıb.



O bildirib ki, hər il bütün dünyada olduğu kimi ATU-nun Tədris Terapevtik Klinikasında da Dünya Böyrək Günü qeyd olunur və bu konfransın davamlı keçirilməsi çox təqdirəlayiq bir haldır: “Hər il keçirilən bu konfransın əsas məqsədi böyrək patalogiyasının yayılmasının qarşısını almaq və profilaktik tədbirlərin görülməsindən ibarətdir. Statistik məlumatlarda da qeyd edildiyi kimi, dünya əhalisinin 10-12%-də böyrək xəstəliyi var və bu xəstəlikdə risk faktorları mövcuddur. Bu, böyrək xəstəliyinin çox aktual olmasının göstəricisidir. Respublikamızda da sözügedən sahəyə ölkə rəhbərliyi və Səhiyyə Nazirliyi tərəfindən xüsusi diqqət yetirilir. 2016-cı ilin yanvar ayında Nazirlər Kabineti tərəfindən xüsusi tədbirlər planı hazırlandı, hal-hazırda da icra edilir. Hazırda Azərbaycanda 3000-dən artıq xəstənin yararlandığı 38 hemodializ mərkəzi fəaliyyət göstərir. Onu da qeyd edim ki, il ərzində dövlətimiz bu sahəyə kifayət qədər



vəsait ayırır”.

Direktor konfransın keçirilməsindəki təşəbbüsünə və əziyyətinə görə baş nefroloq, professor Mehman Ağayevə təşəkkür edib. Onun bu sahədəki zəhmətini yüksək qiymətləndirib.

Daha sonra Səhiyyə Nazirliyinin Baş Nefroloqu, ATU-nun TTK-nın Efferent Terapiya Mərkəzinin müdiri, Terapevtik və Pediatrik Propedevtika kafedrasının professoru Mehman Ağayev çıxış edib.

O, ilk öncə Universitet rəhbərliyinə və klinikanın direktoruna bu şəraiti yaratdıqlarına görə təşəkkürünü bildirib.

Professor dünyada böyrək xəstəliyi olan insanların sayının artmaqda olduğuna diqqət çəkib: “Bu göstərici hazırda 10-12% təşkil edir. Xroniki böyrək xəstəliyi olan insanların əksəriyyəti artıq çəki səbəbindən əziyyət çəkirlər. Ümumdünya Böyrək Gününün keçirilməsində də əsas məqsəd böyrək xəstəliyi olan insanları maarifəndirməkdən ibarətdir. Bu xəstəliklərə arterial hipertenziya, şəkərli diabet və s. aiddir.

Bilirsiniz ki, piylənmə böyrəyin əsas risk faktorlarından biridir. Bu gün 600 milyon insan artıq çəkidən əziyyət çəkir. Sevindirici hal kimi onu deyə bilərəm ki, indiki dövrdə müəyyən qədər piylənmənin qarşısını almaq olur. Buna həyat şəraitinin yaxşılaşdırılması, sağlam qidalanma və s. kimi qaydalara əməl etməklə nail olmaq olar ”.

Daha sonra akademik M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının hemodializ şöbəsinin müdiri, professor Fariz Babayev “Azərbaycanda böyrək əvəzedici terapiyanın 2016-cı il registri” mövzusu ilə çıxış edib.

O, qeyd edib ki, Nazirlər Kabinetinin 2016-2020-ci illər üçün “Xroniki Böyrək Çatışmazlığı” Dövlət Proqramı qəbul olundu və dövlətimiz tərəfindən bu məsələlərə xüsusi diqqət, qayğı göstərilir: “Bunun nəticəsində hazırda Azərbaycanda 38 hemodializ mərkəzi fəaliyyət göstərir. Halbuki 2006-cı ildə ölkəmizdə cəmi 7 hemodializ mərkəzi var idi. Azərbaycanda dializ xəstələrinin yaş göstəricisi 9-78 arasında tərəddüd edir və hal-hazırda 38 hemodializ mərkəzində 590 hemodializ aparatı 3111 xəstəyə xidmət edir.

Bunlardan 1273 nəfər Bakı şəhərində, 1838 nəfər regionlarda tam dövlət hesablı hemodializlə təmin olunublar. Nazirlər Kabinetinin qəbul etdiyi proqrama əsasən 2016-cı ildə Ağsu, Göygöl, Biləsuvar və Qusar rayonlarında hemodializ şöbələri istifadəyə verildi. Bu zaman insanların sıxlığı, təminatın lazımi səviyyədə olmaması və digər amillər nəzərə alınaraq nazirlik tərəfindən belə bir addım atıldı. Azərbaycanda fəaliyyət göstərən 38 hemodializ mərkəzinin 8-i Bakıda, 30-u isə regionlarda fəaliyyət göstərir”.

Konfransda eyni zamanda “Nefrotik sindromun ağırlaşmaları”, “Akademik M. Cavadzadə adına RKUX-da böyrəkköçürmə əməliyyatı təcrübəsi”, “Punksion böyrək biopsiyasının patomorfoloji və ultrastruktur nəticələri”, “Uşaqlarda ANCA assisoyalı vaskulitlər”, “BXX olan xəstələrdə C virusu Hepatitinin müasir müalicəsi”, Hemodializ zamanı aşağı molekullu heparinin istifadəsi təcrübəsi”, “Böyrəklərin zədələnməsi ilə gedən sistem vaskulitlərinin müalicəsində plazmaferizin təbiqi” mövzularında elmi məruzələr dinlənilib.

Konfransın sonunda qarşıda duran vəzifələr və görüləcək işlərlə bağlı fikir mübadiləsi aparılıb. Bildirib ki, bu işlərin həyata keçirilməsi gələcəkdə nefrologiyanın respublikamızda daha da inkişaf etməsinə təkan verəcəkdir.

**ATU-nun mətbuat xidməti**
**Fotolar Cənnətalı Çingizindir**

# Bu müayinə Azərbaycanda yalnız ATU-nun Tədris Terapevtik Klinikasında aparılır

**Qadınlar ildə bir neçə dəfə ginekoloji və digər müayinələrdən keçməlidirlər. Xüsusilə də, süd vəzi ilə bağlı problem yaşayan qadınların dəqiq müayinə olunması vacibdir.**



Bu baxımdan bəzi müayinələr var ki, onlar yalnız Azərbaycan Tibb Universitetinin mütəxəssisləri tərəfindən aparılır. Azərbacyanda ilk olaraq məhz Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında süd vəzindən ifrazatın gəlmə səbəbini və mənşəyini təyin etməyə imkan verən müayinə aparılır. “Duktoqrafiya” adlanan bu müayinənin aparılmasına imkan verən cihaz ATU-nun Tədris Terapevtik Klinikasında mövcuddur.

Əgər süd vəzindən qanlı ifrazat gəlirsə, bu zaman həm mammoqrafiya, həm də duktoqrafiya aparılmalıdır. Hazırda ATU-nun Tədris Terapevtik Klinikasında hər iki müayinənin aparılması üçün lazımi avadanlıq və uyğun şərait mövcuddur.

Məlumat üçün qeyd edək ki, “Duktoqrafiya” müayinəsi uzun illər bu sahə ilə məşğul olan gənc mütəxəssis, ATU-nun Şüa diaqnostikası və terapiyası kafedrasının əməkdaşı, Tədris Terapevtik Klinikasının aparıcı mamoloq-radioloqu Günel Qəmbərova tərəfindən aparılır. G.Qəmbərova hazırda ”Süd vəzinin qeyri-şiş mənşəli xəstəliklərinin erkən diaqnostikası” mövzusunda elmi iş yazır, bu mövzuya dair 40-dan çox elmi məqalələnin müəllifidir.

# Mülki müdafiə gününə həsr olunmuş tədbir keçirilib

**Martın 1-də 1 saylı tədris korpusunda ATU-nun Mülki Müdafiə Qərargahının rəisi Firdovsi Məmmədovun iştirakı ilə Mülki Müdafiə Gününə həsr olunmuş tədbir keçirilib.**



MMTX kursunun rəisi, istefada olan polkovnik Fərman Əliyev “Mülki müdafiənin fəlakətlərə qarşı mübarizədə rolu” mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, Mülki Müdafiə - sülh və müharibə şəraitində mülki əhalinin, təsərrüfat obyektlərinin kütləvi qırğın silahlarından və düşmən hücumundan qorunması, eyni zamanda təbii fəlakət nəticələrinin aradan qaldırılmasında xilasetmə, bərpaetmə işlərini həyata keçirən ümumdövlət tədbiridir.



Məruzəçi tədbir iştirakçılarına Beynəlxalq Mülki Müdafiə Təşkilatının yaranma tarixi və fəaliyyəti istiqamətləri, 1 mart – Ümumdünya Mülki Müdafiə Günü və onun qeyd edilməsinin məqsədi, Azərbaycan Respublikasının Beynəlxalq Mülki Müdafiə Təşkilatına üzvlüyü, Azərbaycan Respublikasının Mülki Müdafiə sistemi, eləcə də mülki müdafiə təbliğatı və əhalinin fəlakət riskinin qarşısının alınmasına necə hazırlanması barədə ətraflı məlumat verib: “İlk dəfə 1931-ci ilin mayında Fransanın paytaxtı Parisdə tibb xidməti generalı fransız Corc Sant-Pol “Neytral zona və açıq şəhər ” adlı kiçik cəmiyyət yaradır, burada qocaları, xəstələri, körpə uşaqlı anaları mühafizə edir.

Sonralar təşkilat 1958-ci ilin yanvarında Beynəlxalq Mülki Müdafiə Təşkilatına çevrildi. 1960-cı ilin əvvəlində BMMT müharibə vaxtı əhalinin mühafizəsindən başlamış, sülh dövründə təbii və texnogen mənşəli qəzalaradək bütün problemlər üzrə fəaliyyət dairəsini genişləndirdi. Təşkilatın Nizamnaməsi 1972-ci il martın 1-də qanuni qüvvəyə mindi.

Həmin vaxtdan etibarən hər il 1 mart bütün ölkələrdə Ümumdünya Mülki Müdafiə günü kimi qeyd edilir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra, 1993-cü ildən bu təşkilatın üzvlüyünə qəbul olunmuş və onun keçirdiyi bütün tədbirlərdə fəal iştirak edir. 1997-ci ildə Milli Məclis “Mülki Müdafiə haqqında Qanun” qəbul etdi. 2005-ci ildən Prezidentin sərəncamı ilə ölkəmizdə Fövqəladə Hallar Nazirliyi yaradıldı”.

Mülki Müdafiə sistemində əsas məqsədlərdən birinin adamlara Mülki Müdafiə tədbirlərinin yerinə yetirilməsində onların öz vəzifələrini bilməsinə kömək etmək, bilik və praktiki vərdişlərin təkmilləşməsini öyrətmək olduğunu vurğulayan F.Əliyev FHN-nin hər ilin 1 mart günü belə təlimlər keçirdiyini söyləyib: “Təlimdə Mülki Müdafiənin bütün xidmətləri: rabitə, yanğından mühafizə, tibb xidməti, mühəndis, kimyəvi və radiasiya əleyhinə, nəqliyyat, kommunal-texniki, ictimai asayişin qorunması, bitki və heyvanların mühafizəsi və s. əlaqəli şəkildə iştirak edirlər”.

Qeyd olunub ki, müharibə və dinc dövrün fövqəladə hallarında tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi əhalinin və Mülki Müdafiənin hərbiləşməmiş dəstələrinin döyüş hazırlığından, psixoloji möhkəmliyindən və yüksək mənəvi ruhundan çox asılıdır.

Hər bir vətəndaş əhalinin və ərazinin müdafiəsi, zərərçəkənlərə ilkin tibbi yardım göstərilməsi, fərdi və kollektiv mühafizə vasitələrinin istifadəsi üsullarını mükəmməl bilməli, fövqəladə hal zamanı müəyyən edilmiş davranış qaydalarına əməl etməli, lazım gəldikdə xilasetmə tədbirlərində yardım göstərməlidir.

**Arif MƏMMƏDLİ**



# Azərbaycan Tibb Universitetində Təhsilin Keyfiyyətinin Təminatı haqqında Bəyannamə qəbul edilib

**◆ Xatırladaq ki, bir qədər öncə ATU-nun rektoru, professor Gəray Gəraybəylinin əmri ilə "Tədris metodik və innovasiya" şöbəsinin bazasında "Təhsilin keyfiyyətinin təminatı və innovasiya" şöbəsi yaradılmışdır. Bu və digər məsələlər haqqında adı çəkilən şöbənin müdiri, professor Akif Qurbanov qəzetimizə geniş məlumat vermişdir.**

Onun sözlərinə görə Azərbaycan Tibb Universitetində Təhsilin keyfiyyətinin təminatı bu günün tələblərindən irəli gəlir. "Avropa Kredit Transfer Sisteminin tələblərinə uyğun olaraq təhsildə "İSO-9000" beynəlxalq standartlarına cavab verməK və Beynəlxalq Akkreditasiyadan keçmək iddiasında olan hər hansı bir universitet keyfiyyətin idarə edilməsi sisteminə malik olmalıdır: "Bütün bunları nəzərə alaraq ATU-da keyfiyyətin idarə edilməsi sisteminin yaradılmasına başlanılmışdır. Bunun üçün rektorun əmri ilə müvafiq şöbə yaradılmış, şöbənin işini gücləndirmək məqsədilə əlavə əməkdaşlar cəlb edilmişdir. Qeyd edim ki, yeni şöbə universitet rektorunun bilavasitə tabeçiliyində fəaliyyət göstərəcəkdir.

Keyfiyyətin idarə edilməsi sisteminin yaradılması istiqamətində ilk addımlardan biri ATU-nun Böyük Elmi Şurasında Təhsilin Keyfiyyətinin Təminatı haqqında Bəyannamənin müzakirəsi və qəbul edilməsi olmuşdur. Azərbaycan Tibb Universitetində təhsilin keyfiyyətinin təminatı haqqında bəyannamə Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı prinsipləri əsasında hazırlanmışdır.

**Bəyannamə aşağıdakı bəndlərdən ibarətdir:**

1. Təhsilin keyfiyyəti sahəsində siyasət
2. Tədris prosesinin və təhsil proqramlarının keyfiyyət təminatı
3. Tələbələrin qiymətləndirilməsinin keyfiyyət təminatı
4. Müəllim heyətinin keyfiyyət təminatı
5. Təlim resursları və tələbələrə dəstək mexanizmləri
6. Məlumat (informasiya) sistemləri
7. Məlumatların ictimaiyyətə çatdırılması".

A.Qurbanov bildirib ki, bəyannamədə göstərilən bəndlərin hər biri standart və təlimatlardan ibarətdir. Hər bir təlimata uyğun strateji hədəflərin müəyyən edilməsi və onun yerinə yetirilməsi ATU-da təhsilin keyfiyyətli olmasını təmin edəcəkdir: "Bəyannamənin ilk bəndi Təhsilin Keyfiyyəti sahəsində siyasətə həsr edilmişdir. Azərbaycan Tibb Universitetinin təhsilin keyfiyyəti sahəsində siyasəti cəmiyyətin və dövlətin bu günkü tələblərinə uyğun yaradıcı düşüncəyə malik, tibbin ayrı-ayrı sahələri üzrə inkişafını planlaşdıra, onu reallaşdıra və inlişaf etdirə bilən, gələcəkdə yüksək ixtisaslı mütəxəssis kimi fəaliyyət göstərə biləcək həkim və əczaçı kadrların səmərli hazırlanma sisteminin yaradılması və təşkilindən ibarətdir. Təhsilin keyfiyyəti sahəsində siyasət, onun strategiyası və prosedurları rəsmi statusa malik olmaqla hamı üçün açıqdır, tələbələr və digər maraqlı tərəflərin bu siyasətdə iştirakı təmin olunur.

**Təhsilin keyfiyyəti sahəsində siyasət aşağıdakı prinsiplərlə reallaşır:**

1. Keyfiyyətin təminatı sisteminin təşkili;
2. Universitetin keyfiyyət və standartlarının strategiyasının müəyyənləşdirilməsi;
3. Universitetdə təhsilinin elmi axtarışlarla qarşılıqlı əlaqəsinin təmin edilməsi;
4. Fakültələrin, kafedraların və digər təşkilat vahidlərinin, eləcə də ayrı-ayrı fərdlərin keyfiyyətin təminatı üçün məsuliyyət daşıması;
5. Keyfiyyətin təminatına tələbələrin cəlb edilməsi;
6. Təhsilin keyfiyyəti siyasətinin yerinə yetirilməsi, onun üzərində nəzarət və onun yoxlanılması yollarının müəyyənləşdirilməsi".

Sözünə davam edən şöbə müdiri Bəyannamənin bəzi mühüm məqamlarına toxunaraq bunları deyib: "Keyfiyyətin təminatı üçün universitet mükəmməl təhsil proqramına malik olmalı, onu daim yeniləşdirmək və təkmilləşdirmək üçün müəyyən işlər görməlidir. Tədris prosesinə daim nəzarət etməklə onun keyfiyyətinin yüksəldilməsi üçün müvafiq tədbirlər həyata keçirilməlidir. Tələbələrin bilik və bacarıqlarının obyektiv qiymətləndirilməsi, onun daim təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılmalıdır. Qeyd edim ki, universitet artıq bu sahədə fəaliyyətə başlamışdır. Belə ki, I kursdan başlayaraq test üsulu ilə semestr imtahanları artıq müəyyən dəyişikliklərlə həyata keçirilir. Hesab edirəm ki, bu dəyişikliklər tələbələrin biliyinin daha obyektiv qiymətləndirilməsini təmin edəcəkdir.

Keyfiyyətin təmin olunması üçün hər bir təhsil müəssisəsi özünü peşəkar və səriştəli müəllim heyəti ilə təmin etmək üçün müəyyən yollara və üsullara malik olmalıdır. Müəllim tədris sahədə mükəmməl bilik və bacarığa malik olmalı, bunları tələbələrə öyrətməyi, tələbələrin əldə etdikləri bilikləri və bacarıqları qiymətləndirməyi bacarmalıdır. Bu sahədə də universitet artıq müəyyən işlər görməyə başlamışdır. Belə ki, ATU-nun müəllim heyəti kompetensiyaları necə yerinə yetirməsindən asılı olaraq reytinq balları ilə qiymətləndirilcəkdir. Müəllimlərin qiymətləndirilməsi Xüsusi Komissiya tərəfindən aparılacaqdır. Rektorun əmri ilə müəllimlərin qiymətləndirilməsi üçün yaradılmış işçi komissiya bu yaxınlarda fəaliyyətə başlayacaqdır. Qeyd etmək lazımdır ki, professor Çingiz Rəhimovun rəhbərliyi ilə Xüsusi Komissiya müəllimlərin qiymətləndirilməsi üçün hesabat forması hazırlamışdır. Reytinq ballarına müəllimlərin tələbələr tərəfindən anket sorğusu vasitəsilə qiymətləndirilməsinin nəticələri də daxil ediləcəkdir.

Keyfiyyətin təminatında digər mühüm məsələ təhsil prosesində tələbələrin müvafiq resurslarla və dəstək mexanizmləri ilə təmin edilməsidir. Bu sahədə universitetin əsas fəaliyyəti təlim resursları və dəstək xidmətlərinin tələbələrin ehtiyaclarına görə planlaşdırılması və hər bir tələbənin bunlardan istifadə edə bilməsini təmin etməkdən ibarət olacaqdır.

Bütün fəaliyyətlərin effektli idarə edilməsi üçün təhsil müəssisəsi müvafiq məlumatların toplanması, onların təhlili və istifadəsini təmin etməlidir. Universitetin özünütəhlili, yəni özü haqqındakı məlumatları təhlil etməsi effektli keyfiyyət təminatının əsasıdır. Universitetin öz fəaliyyəti haqqındakı məlumatların toplanması və təhlili mexanizmlərinə malik olması zəruridir. Bu olmadan tədrisin effekti, eləcə də innovativ islahatların nəticəsi haqqında məlumat almaq mümkün deyil".

A.Qurbanov qeyd edib ki, göstərilənlərin həyata keçirilməsi heç də asan məsələ deyil. Təhsilin keyfiyyətli olması üçün universitet kollektivinin hər birindən məsuliyyətli olmaq, öz işinə vicdanla yanaşmaq və ictimai mənafeləri şəxsi mənafedən üstün tutmaq tələb olunur. Onlar keyfiyyətli kadr hazırlığına daim öz töhfələrini verməlidirlər.

**Mənsur ƏLƏKBƏRLİ**

# Meyvə-tərəvəz yemək ovqatı yüksəldir



**Alimlərin fikrincə, hətta az miqdarda meyvə-tərəvəz yemək ovqatı yüksəldir. İki həftədən sonra nəticəni müşahidə etmək mümkündür.**

AZƏRTAC "Aktualnıye novosti" saytına istinadla xəbər verir ki, alimlərin apardığı tədqiqatda könüllülərə 14 gün ərzində iki əlavə porsiya meyvə-tərəvəz verilib.

Tədqiqatda iştirak edən 171 adam üç qrupa bölünüb. Birinci qrupdakı adamlara onların adət etdiyi yemək rasionu, ikinci qrupa meyvə-tərəvəz almaq üçün kupon, üçüncü qrupa isə bişirilməmiş meyvə-tərəvəzdən ibarət əlavə porsiya verilib. Yaxşılaşma yalnız üçüncü qrupda müşahidə edilib, çünki ikinci qrupdakı adamlar meyvəni alıb və ondan yemək hazırlamaq üçün istifadə ediblər.

Məktəblilər, tələbələr daim faydalı qidalanmalıdırlar. Həmçinin yeməkdə meyvə-tərəvəzdən istifadə etmək insanın psixi sağlamlığını sabitləşdirir, tonusu artırır, ovqatı yüksəldir.

# Yaz mövsümündə qidalanma

**Yaz fəsli təkcə təbiətdə deyil, orqanizmdə də oyanış və canlanma dövrüdür. İlin bu fəsli bəzi xəstəliklər üçün xarakterikdir. Yazda allergik və infeksion xəstəliklər baş qaldırır, dermatoloji problemlər yaşanır. Ona görə də ilin bu fəslində düzgün qidalanmadan çox şey asılıdır.**

Təbii üsullarla müalicə üzrə mütəxəssis Seyfəddin Əsəd AZƏRTAC-ın müxbiri ilə söhbətində deyib: "Qışda təbii qidalar, o cümlədən təzə meyvə-tərəvəzlə təminat nisbətən azalır və buna görə də orqanizmin müqaviməti zəifləyir, virus və infeksiyalara qarşı həssaslıq yüksəlir. Yaz fəslində C vitamininə tələbat artır. Orqanizmin müqavimətini artırmaq üçün göygöyərti və meyvə-tərəvəzdən başqa bal, düyü, noxud, mərci, qarabaşaq və kartof qəbul etmək məsləhət görülür.



Uşaqların yumurta və südlə qidalanması xüsusilə vacibdir. Böyüklər xolesterinin az və ya çoxluğundan asılı olaraq süd və yumurtanı həkim məsləhəti ilə qəbul etməlidirlər. Süd həzm sistemini pozur, allergiyaya meyillilik yaradır. Böyüklər üçün süddən daha çox ağartı məhsulları - qatıq, şor və kəsmiklə qidalanmaq faydalıdır. Orqanizmi amin turşuları ilə təmin etməyin ən güclü üsulu arı məhsullarıdır. Təmiz bal, arı südü, propolis allergiyalı xəstələr və immuniteti aşağı olanlar üçün çox əhəmiyyətlidir. Orqanizmin möhkəmləndirilməsində arı məhsulları çox faydalıdır. Zəli ilə müalicə də maddələr mübadiləsinin yaxşılaşdırılması və xəstəliklərlə mübarizə sahəsində böyük rol oynayır".

# Elə bir xəstəlik yoxdur ki, orada sarımsaq özünün müalicəvi təsirini göstərməsin

**Sarımsaq soğankimilər fəsiləsinin soğan cinsinə aid bitki növüdür. Kəskin yandırıcı dadı və özünəməxsus iyi olan bu bitkidən çox qədim zamanlardan bəri Şərq təbabətində bir sıra xəstəliklərə qarşı dərman vasitəsi kimi istifadə olunur.**



Sarımsağın faydaları və xəstəliklərə qarşı istifadə qaydaları haqqında AZƏRTAC-a məxsusi müsahibəsində Azərbaycan Tibb Universitetinin əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının dosenti, tibb elmləri namizədi Sərxan Tağıyev danışıb.

S.Tağıyev deyib: "Mən deyərdim ki, sarımsaq bütün tərəvəzlərin şahıdır. Elə bir xəstəlik yoxdur ki, orada sarımsaq özünün müalicəvi təsirini göstərməsin. Misal üçün, bu bitki aterosklerozun inkişafının, qaraciyərin piylənməsinin qarşısını alır, xolesterin mübadiləsini gücləndirir, fitonsid effekti göstərir. Bundan əlavə dəri, ürək, ginekoloji xəstəliklərdə də sarımsaq çox gözəl effekt verir. Burada əlbəttə ki, bəzi xəstəliklər istisna edilir, misal üçün, mədə yarası. Sarımsaq əsasən qurd xəstəliyi zamanı qurdlara qarşı göstərdiyi öldürücü təsirə görə bütöv udulur. Dəri xəstəlikləri dedikdə ekzema və ya yanıqları misal çəkmək olar. Belə hallarda ılıq (50-60 dərəcə temperaturda) bitki yağına əzilmiş sarımsaq əlavə olunub, bir müddət gözlədikdən sonra problemli nahiyəyə çəkilir. Sarımsaqdan hazırlanan preparatlar damarları içdən təmizləyir".

# Ürək qüsurlu uşaqlar üçün "Özəl yaz kampaniyası"



- **Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında uşaqlar üçün "Özəl yaz kampaniyası" keçirilir. Martın 1-dən başlayan aksiya çərçivəsində 18 yaşadək olan uşaqlarda ürəkdə olan problemləri aradan qaldırmaq üçün kardioloji check-up (EXO, EKG və müayinə) müayinəsi aparılır.**

Tədris Cərrahiyyə Klinikasının pediatrik-invaziv kardioloqu Elşən Rzayevin sözlərinə görə, müayinə zamanı uşaqlarda gizli ürək xəstəlikləri də tapılıb, üzə çıxarılacaq: "Aksiya bayram günlərində də davam edəcək. Həddindən artıq axın var aksiyaya. Bizim əsas məqsədimiz valideynlər arasında maarifləndirmə aparmaqdır, uşağın ürəyinin müayinə olunmasının vacibliyini onlara çatdırmaqdır. Bu məsələ həqiqətən də ciddi şəkildə yayılmalıdır".

Kardioloq Elşən Rzayev uşaqlarda rast gəlinən kardioloji problemlərdən söz açaraq, valideynləri diqqətli olmağa çağırıb. Onun sözlərinə görə, Azərbaycanda ümumiyyətlə, pediatrik kardiologiya yeni yaranmağa başlayıb: "Bir çox valideynlər uşağın ürəyində problem ola biləcəyini ehtimal etmirlər. Yəni əhalimizdə "ürək xəstəliyi yaşlı adamda olar" tipli bir düşüncə var. Amma uşaqlarda anadangəlmə ürək qüsuru hallarına çox rast gəlinir. Bizim işimiz anadangəlmə qüsurları erkən yaşlarda aşkarlamaqdır".

Kardioloqun sözlərinə görə, anadangəlmə ürək xəstəliklərini hətta ana bətnində də müalicə etmək mümkündür: "Hamiləliyin 12-ci həftəsindən başlayaraq, fetal exokardioqrafiya vasitəsilə dölün ürəyində dəyişiklik olub-olmadığını təyin edə bilirik. Bu tam 100 faizlik diaqnostik üsul olmasa da, kobud qüsurların hamısını aşkar edib, müvafiq tədbirlər görmək olur. Fetal dövrdən başlasaq və hər hansı qüsur aşkar etsək, artıq bu doğuşun harada və nə zaman olacağına qərar verə bilirik".

Həkim bildirir ki, ana bətnində olan körpələrdə müxtəlif növ defektlərə rast gəlinir: "Doğulmamış uşaqlarda həm çox sadə, həm də çətin defektlər olur. Bu pediatrik kardioloji yardımda əsas faktorlardan biri zamandır. Bəzən elə xəstələr olur ki, aylar belə böyük rol oynayır. Məsələn, həmin xəstəliyi uşağın 3 aylığında da rahatlıqla müalicə edə bilərdik, amma ana bizə artıq uşağın 7 aylığında müraciət edir. Bu artıq gecikmiş patologiya hesab edilir".

# 14 yaşlı qız üzərində unikal tibbi əməliyyat






**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında 14 yaşlı qızın üzərində mürəkkəb tibbi əməliyyat icra edilib. Klinikadan verilən məlumata görə, son dərəcə mürəkkəb olan əməliyyat Tədris Cərrahiyyə Klinikasının mama-ginekologiya şöbəsinin müdiri Turab Canbaxışov tərəfindən həyata keçirilib.**

Maraqlıdır ki, yeniyetmənin ailəsinin dəfələrlə müraciət etməsinə baxmayaraq, nə Azərbaycanda, nə də Türkiyədə heç bir klinika bu əməliyyatı keçirməyə boyun olmayıb.

Turab Canbaxışovun sözlərinə görə, pasiyentin son bir ildə hər ay müntəzəm olaraq 3-5 gün çox şiddətli ağrıları olub, lakin menstrual qanaxma müşahidə olunmayıb: "Diaqnostik müayinələr zamanı pasiyentin anadangəlmə uşaqlıq yolunun qüsuru (tamamilə inkişaf etməməsi) aşkarlanıb. Hər ay menstrual qanaxmalar uşaqlıq yolu olmadığı üçün bayıra deyil, uşaqlıq boruları vasitəsilə daxilə, yəni qarın boşluğuna gedirmiş və ciddi ağrılara səbəb olurmuş".

T.Canbaxışovun sözlərinə görə, bu qüsura 10 mindən bir qız uşağında rast gəlinir. Belə xəstələrdə eyni zamanda, ürək və böyrək qüsurları ehtimalları da artır. Lakin bu pasiyentin səhhətində başqa problem olmayıb.

Həkimin dediyinə görə, əməliyyat təxminən 3 saat davam edib, fəsadsız keçib və süni uşaqlıq yolu yaradılıb. Uşaqlıq yoluna müvəqqəti olaraq xüsusi balonlar yerləşdirilib: "Uşaqlıq yolu inkişaf etmədiyi üçün qonşu orqanlar - sidik kisəsi və düz bağırsaq bir-biriylə bitişik halda idi və aralarını bu orqanlara zərər vermədən ayırmak xüsusi diqqət və təcrübə tələb edirdi. Gələcəkdə, yetkin yaşında uşaqlıq yolunun korreksiyası üçün pasiyenti növbəti əməliyyat gözləyir".

Hal-hazırda 14 yaşlı pasiyentin vəziyyəti yaxşıdır və artıq xəstəxanadan evə buraxılıb.

# ATU təmsilçisi tütünlə mübarizəyə dair ictimai müzakirəyə qoşulub



- **Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində "Tütünlə mübarizəyə dair Azərbaycan qanunvericiliyinin gücləndirilməsi" layihəsi çərçivəsində növbəti tədbir təşkil olunub.**

Mərkəzdən daxil olan xəbərə görə, tədbirdə Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), Azərbaycan Tibb Universiteti, "Asan Agentlik" və "ASAN Könüllüləri Gənclər Təşkilatı" İctimai Birliyi, "Həmrəy Gənclərin Maarifləndirilməsinə Dəstək" İctimai Birliyi, "Ümidli Gələcək" İctimai Birliyi və "LAYF" Xeyriyyə İctimai Birliyinin əməkdaşları iştirak ediblər.

Mərkəzin səhiyyə siyasəti və islahatlar şöbəsinin müdir müavini Nabil Seyidov "Tütün məmulatlarının istehlakının məhdudlaşdırılması haqqında" Qanun Layihəsinin müzakirəsi ilə əlaqədar Milli Məclisdə planlaşdırılan "dəyirmi masa"nın təşkilinə dair iştirakçılarla fikir mübadiləsi aparıb. Tədbir iştirakçıları müzakirə olunan məsələ barədə maraqlı fikir və təkliflər səsləndiriblər.

# Aktiv tələbələr istirahətə göndərildi

- **10-12 Mart tarixlərində Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) aktiv 27 tələbəsi, Səhiyyə Həmkarlar İttifaqı Komitəsinin Qusar rayonu ərazisində yerləşən "Şəfa" istirahət mərkəzinə göndərilib.**



ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Elşad Novruzov tələbələrin çox yaxşı vaxt keçirdiyini, lazımınca əyləndiklərini qeyd edir: "Bu 3 gün ərzində tələbələrimiz istirahətlə yanaşı, itimai işlərlə də məşğul olublar. Onlarla Quba soyqırımı memorial kompleksini ziyarət etdik. Bu, tələbələrimiz üçün çox təsirli və yadda qalan bir səfər oldu. Səfərin maraqlı tərəflərindən biri isə tələbələrimizin mərkəzdə dincələn digər səhiyyə işçiləri üçün konsert proqramı ilə çıxış etməsi oldu. Bu məqam həm tələbələrimiz, həm də orada istirahət edənlərin vaxtını daha fərqli keçirməsinə gətirib çıxardı".

Qeyd edək ki, mərkəzdə dincələn tələbələrdən 8-i ATU-nun "Şəfa" instrumental xalq çalğı alətləri ansamblının üzvüdür.

İstirahət mərkəzində tələbələrə müxtəlif əyləncə növləri və gündə 3 dəfə yemək təqdim olunub.

# Tədris-Cərrahiyyə Klinikasında xeyriyyə aksiyası

- ***ATU-da bir həftə davam edən sünnət aksiyası keçirilib. Bu aksiya Help Gold Agency şirkətinin təşəbbüsü və Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəylinin göstərişi ilə baş tutub.***



Klinikanın rəhbəri, professor Surxay Hadıyev bu aksiyanın mütəşəkkil keçirilməsi üçün lazımi tapşırıqlarını verib. Professor Çingiz Quliyev və onun əməkdaşları tərəfindən xəstələrə ambulator baxış keçirildikdən sonra onlara göstəriş üzrə "Circumcizio" (sünnət) əməliyyatı həyata keçirilib.

Bir həftə davam edən aksiyada ümumilikdə 50 uşaq sünnət edilib. Bu uşaqlar aztəminatlı ailələr arasından seçilib. Əməliyyatlar uğurla başa çatıb, uşaqların ailələri bu aksiyaya görə təşkilatçılara, bu işdə əməyi keçən kollektivə-kafedra müdiri, professor Çingiz Quliyevə, şöbə müdiri, dosent Ramiz Poluxova, həkimlər Vüqar Məhəmmədova, Günay Hüseynzadəyə, Murad Əlibəyova, Xatirə Rəhimovaya, Ramin Bayramova, rezidentlər Könül Musayevaya, Həmidə Əliyevaya, Mədinə Bağırovaya, Nigar Babayevaya, Gülnarə Ələsgərliyə və təşkilatçı şirkət Help Gold Agency-yə öz təşəkkürlərini bildiriblər.

**ATU-nun mətbuat xidməti**

# Sadə peşə sahibləri

**Azərbaycan Tibb Universiteti gündən-günə gözəlləşir. Buna bizim fəaiyyət göstərdiyimiz anatomiya və fizika-kimya korpusunu misal göstərmək olar. Məşhur teatrşünas Stanislavski demişdir ki, "teatr qarderobdan" (asılqandan) başlayır.**

Doğrudan da bu tədris korpuslarının həyəti "Cənnət bağını" xatırladır. Buranın abadlaşdırılmasında əməyi olan insanlardan biri də Həsən Həsənquluyevdir. Həsən Qafan rayonundan gəlmiş qaçqın ailəsinin nümayəndəsidir. Tibb Universitetinin tələbəsi olmaq onun arzusu idi. Ancaq üç dəfə qəbul imtahanı versə də müsabiqədən keçə bilmədi. Bundan sonra o, taleyini ömürlük Tibb Universitetinə bağladı. Burada bağbançılıqla məşğul olur. Onun üçün iş qrafiki qeyr-məhdududur. Belə ki, səhər saat 6-dan axşam saat 7-8-ə qədər həyətdəki ağac və güllərə qulluq edir. Bu peşədə 20 ildən artıqdır ki, fəaliyyət göstərir. Bununla kifayətlənməyən Həsən Həsənquluyev kafedraların əməkdaşlarına da lazımi köməklik göstərir. Onun bu fəaliyyətini universitetimizin rektoru, professor Gəray Gəraybəyli yüksək qiymətləndirib. Belə ki, bu yaxınlarda universitetdə ilin yekunlarına həsr olunmuş yığıncaqda bir qrup qabaqcıl müəllim və tələbə heyəti ilə birlikdə təsərrüfat işində yüksək fədakarlıq göstərən Həsən Həsənquluyevin də zəhmətinin qiymətləndirilməsi təqdirə layiqdir. Sadə peşə sahiblərinin əməyini yüksək qiymətləndirdiyi üçün hörmətli rektorumuza kollektivimiz adından dərin minnətdarlığımızı bildirir və çox sağ olsun deyirik.

***Azər Vələdov,***
*Normal fiziologiya kafedrasının dosenti*

# Yaz süfrəsi



**Yazda torpağın sinəsindən təzə cücərtilər dənzərən kimi kənd yerlərində deyirlər ki, kasıbın çörəyi çıxdı. Köhnə kişilər danışırdılar ki, aclıq-qıtlıq vaxtı çox adam çöldə-düzdə bitən ot-pencəri yeyə-yeyə xilas oldu.**



Torpaq qar yorğanını üstündən atan kimi, bənövşə çıxan vaxtlarda ilkin olaraq incələnqoz ağızları dada gətirir. Onun dalınca da hər birinin öz dadı-tamı olan digər bitkilər çıxmağa başlayır: quşəppəyi, qazayağı, quzuqulağı, qırxbuğum, qulançar, bağayarpağı, qanqal, əvəlik, yemlik, kətəsaqqalı, pərpətöyün, cincilim, dağ kişnişi, yarpız, nanə, qıcı, şüyüd, vəzəri, cəfəri... Obrazlı desək, elə bil ana təbiət nəhəng bir göy-göyərti süfrəsi açır.

Tənəyin, böyürtkənin təzə çıxan zoğları, fındığın təzə açılan yarpaqları da kənddə yaşayanların yaz azuqəsidir. Yal-yamacda bitən qanqalın özəyini tikandan təmizləyib yemək yəqin ki, hər kəs üçün əvəzolunmaz təamdır. Axı yüz illər boyu indiki iynə-dərmanlar olmayanda babalarımız bu bitkilərlə müalicə alır, sağlamlıqlarını onların vasitəsi ilə qoruyurdular. Elə bil onda insanlar həkimin, dava-dərmanın nə olduğunu da xatırlamırdılar. Bəlkə də indi həb kimi, iynə kimi qəbul etdiyimiz vitaminlər elə həmin nemətlərin tərkibində olduğuna görə ağrı-acının nə olduğunu bilmirdik.

Təbiətin bu gözəl nemətləri mətbəxə də qalib çıxardı. Yaz gələndən nənələrimizin dovğa qazanı ocağın üstündən düşməzdi. Sacın üstündə çiriş kətəsini oyan-bu yana çevirər, qazanda buğlanan göy-göyərtinin xoş ətri aləmi başına götürərdi.

Bitkilərdən, göy-göyərtidən hazırlanan yeməklərin adını saysaq, yəqin ki, uzun bir siyahı alınar: qatıqlı aş, çiriş kətəsi, kükü, çoban dürməyi, şüyüdlü aş, şüyüd dolması, buğlama, ispanaq qovurması, köməc qaynatması, əvəlikli umac, səbzi qovurma, qutab, dovğa, ayranlı aş...

...Süfrədə hər xörəyin öz dadı, öz ləzzəti var. Amma bəlkə də bir boşqab çobansalatı orqanizm üçün dünyanın ən ləziz xörəyindən faydalıdır. Bir dərin boşqab çoban salatı, üstündə də nanə, reyhan...

# İlaxır çərşənbəsi



İlaxır çərşənbə Su, Od və Yel çərşənbələrindən sonra gəlir.

Bu çərşənbəyə xalq arasında "Yer çərşənbəsi", "İlaxır çərşənbə" və ya "Torpaq çərşənbəsi" də deyilir. İnanca görə, sonuncu çərşənbədə yer oyanır, torpaq nəfəs alır. Torpaq bütün canlılara həyat verir və uca Allahın yaratdıqlarının hamısı, o cümlədən insanlar onun qoynuna sığınırlar.

Uzun qış aylarında insanların evlərində saxladığı ərzaqlar tükənir. Əfsanəyə görə adamların əziyyət çəkdikləri bu gündə Su, Od və Yel Torpaq xatunun yeraltı məbədinə qonaq gəlir və burada yatmış Torpağı oyadırlar. İlaxır çərşənbədə torpaq artıq əkinə hazır olur və ona toxum səpməyə başlayırlar. İnsanlar havanın mülayimləşməsinə, suların donunun açılmasına, çayların suyunun artmasına və torpağın canlanmasına sevinib, bu təbiət hadisəsinin hər birini (çərşənbələri) müxtəlif mərasimlərlə qeyd edirlər.

Boz ayın sonuncu çərşənbəsi olan İlaxır çərşənbə isə xalqımız tərəfindən böyük coşqu ilə qeyd edilir. Ölkəmizin bəzi bölgələrində İlaxır çərşənbə hətta Novruz bayramının özü qədər təntənəli keçirilir.

**Bu çərşənbədə nələr etməli?**

İlaxır çərşənbədə həyət-bacalarda tonqal qalanır, hər bir evdə xonçalar bəzənir, bayram süfrəsi açılır. Həmin gün küsülülər barışmalıdırlar. Qapı pusma, evdə ailə üzvlərinin hər birinin adına niyyət tutub şam yandırma, qonşularla, qohumlarla bayramlaşma və bir çox adət-ənənələr bu gün də yaşadılır.

Həmçinin bu günün başlıca özəlliyi ondan ibarətdir ki, qəbir üstünə gedilər, ölülərin ruhuna Quran oxunar, dua edilər. Axşam isə qalanan tonqal üstündən yeddi dəfə o yan–bu yana atılar, bununla da adamlar köhnə ilin azar-bezarını, dərd-bəlasını özlərindən qovub təzə ilə sağlam canla qədəm qoyacaqlarına inanırlar.

İlaxır çərşənbədə bayram xonçasına Novruzun atributları olan səməni, paxlava, şəkərbura, qoğal, boyalı yumurtalar, müxtəlif çərəzlər - qoz, fındıq, iydə ilə yanaşı, həm də meyvə quruları da qoyulur və şamlar yandırılır.

Çərşənbə axşamlarında bölgələrimizdə bəzənən süfrələr və şirniyyat xonçaları kiçik fərqlərlə bir-birindən seçilir. Məsələn, Gəncədə İlaxır çərşənbədə şirniyyat süfrəsinə səməni halvası, zilviyə, hətta firni düzülür. Milli xörəklərdən isə daha çox səbzili, şüyüdlü, lobyalı və noxudlu plovlar dəmlənir.

Şəki bölgəsində hazırlanan bayram xonçalarında buranın spesifik şirniyyatlarını, al-əlvan noğullarını və nabatı görmək mümkündür.

Naxçıvan, Qazax və cənub bölgəsində də İlaxır çərşənbə xüsusi təmtəraqla, özünəməxsus adət-ənənələrlə qeyd edilir.

Bu çərşənbə ilə bağlı bir çox inanclar, sınamalar var. Məsələn, İlaxır çərşənbədə uşağa beşik və heyva çubuğundan gözmuncuğu düzəldərlər. Həmçinin gün çıxmamış su üstündən atlanar, tonqal yandırar, kəlin buynuzuna qırmızı bağlar, qorxmuş insanların başından su töküb qorxunu götürərlər. Bayram günü evdən pul, od, kibrit, neft, ağartı, un, çörək və yumurta verməzlər. Evdə qazan asar, vəfat etmiş yaxın adamların adını çəkib onları yada salar, "filankəslərin adına qazan asdım" deyib qazana ət, düyü və sair tökərlər.

**Xalqımızın gözəl adət-ənənələrini özündə yaşadan İlaxır çərşənbəniz mübarək olsun!**

# Yazda cücərdərəm səni...



**Novruz bayramı yaxınlaşdıqca evlərdə baharın rəmzi olan buğda cücərdilir. Həmin cücərtilərin boy atıb səməniyə çevrilməsi üçün bir neçə həftə gözləmək lazımdır. Lakin səməniyə çevrilməyən və bir neçə günlük buğda cücərtisi tibbi baxımdan çox faydalıdır.**

Avropa Təbiət Elmləri Akademiyasının üzvü, dərman bitkiləri üzrə tədqiqatçı Elnur Rəhimov AZƏRTAC-ın müxbiri ilə söhbətində buğda cücərtisinin E və B vitaminləri ilə zəngin olduğunu bildirib. Həmin vitaminlər sinir və mədə-bağırsaq sistemi üçün çox xeyirlidir. Cücərdilmiş buğdanın tərkibində olan fol turşusu orqanizmdə gedən qanyaratma funksiyası üçün də mühüm əhəmiyyət daşıyır. Fol turşusu hamilə qadınların əsas vitamini sayılır, çünki immun sisteminə müsbət təsir göstərir, dərini qocalmaqdan qoruyur. Kosmetika sənayesində tərkibində cücərdilmiş buğdadan alınmış yağ olan çoxlu krem və maskalar istehsal edilir.

Cücərtinin tərkibində olan sink cinsiyyət sisteminə müsbət təsir edir. Sonsuzluqdan əziyyət çəkən kişilərin müalicəvi məqsəd üçün ondan istifadə etməsi məsləhətdir.

E.Rəhimov dedi: "Şəxsi təcrübəmdə hazırladığım buğda rüşeymli məcunundan çox istifadə edirəm. Əbəs yerə deyil ki, kaloriliyinə görə onu bəzən "idmançı yeməyi" də adlandırırlar".

## Etibarsız sayılır

Hərbi tibb fakültəsinin I kurs, 1127[a] qrup tələbəsi Vəlizadə Yusubəli İqbal oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Tibbi profilaktika fakültəsinin I kurs, 642[a] qrup tələbəsi Aşurov Əlisahib Fərhad oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə profilaktika fakültəsinin I kurs, 170[a] qrup tələbəsi Quliyeva Asiman Haxverdi qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, 701[b] qrup tələbəsi Bayramzadə Fatimə Şamil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Hərbi tibb fakültəsinin əməkdaşları tibb xidmətinin təşkili və taktikası kafedrasının baş müəllimi, tibb xidməti polkovnik- leytenantı Əflatun Məmmədova atası
**Xanoğlan Məmmədovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əsaslı kitabxananın əməkdaşları və "Təbib" qəzetinin kollektivi Əsaslı kitabxananın elmi kitabişləmə və kataloqlaşdırma şöbəsinin müdiri Gülarə Qarayevaya anası
**Yasəmən xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

III cərrahi xəstəliklər kafedrasının əməkdaşları iş yoldaşları, dosent Nizami Vəliyevə qardaşı
**Fariz Vəliyevin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I daxili xəstəliklər və reanimatologiya kafedrasının əməkdaşları kafedranın assistenti
**Səfərova Elmira Məmməd qızının**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

İctimai fənlər kafedrasının əməkdaşları kafedranın baş laborantı Arzu Seyidovaya qaynanası
**Firuzə xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98[c]**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tibbqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800